# Azərbaycan elminin və idmanının inkişafında böyük xidmətləri olan Ağacan Abiyevin 80 illik yubileyi qeyd edilib






**Dekabrın 4-də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında (ADBTİA) Milli Məclisin deputatı, Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) baş katibi, Azərbaycan Boks Federasiyasının birinci vitse-prezidenti, Beynəlxalq Elmlər Akademiyasının üzvü, texnika elmləri namizədi, professor, "Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi", "Şöhrət" və "Şərəf" ordenli Ağacan Abiyevin 80 illik yubileyi qeyd edilib.**

AZƏRTAC xəbər verir ki, yubiley mərasimində ömrünün böyük hissəsini ölkəmizdə idmanın, təhsilin və elmin inkişafına həsr edən Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi Ağacan Abiyevin həyat və yaradıcılığına dair videoçarx nümayiş olunub. Həmçinin A.Abiyevin idmançı, hakim kimi fəaliyyəti, beynəlxalq konfranslarda çıxışları, onun bacarıqlı rəssam olmasını təsdiqləyən rəsm əsərləri də göstərilib. A.Abiyevin ulu öndər Heydər Əliyev ilə görüşlərinə və Ümummilli Liderimizin ona "Şöhrət" ordeni təqdim etməsi mərasiminə dair fotolar böyük maraq doğurub.

MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, gənclər və idman naziri Azad Rəhimov, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, Rusiyanın Əməkdar Elmi Xadimi Andrey Qudin, təhsil nazirinin müavini Firudin Qurbanov, Azərbaycan Rəssamlar İttifaqının katibi Fərhad Xəlilov, Akademiyanın rektoru Fuad Hacıyev, Bakı Mühəndislik Universitetinin rektoru Havar Məmmədov, Milli Məclisin deputatı Hadi Rəcəbli, Azərbaycan Boks Federasiyasının vitse-prezidenti Süleyman Mikayılov, Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Cəmilə Səttarova, Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin professoru Cahangir Məmmədli, "İdman" qəzetinin baş redaktoru Qabil Mehdiyev və başqaları tədbirdə çıxış edərək 80 illik ömrünü idmana, elmi-pedaqoji fəaliyyətə və yaradıcılığa həsr etmiş fədakar elm xadimi və idman ustasının həyat yolundan və çoxşaxəli fəaliyyətindən söhbət açıb, A.Abiyevi 80 illik yubileyi münasibətilə təbrik ediblər.

Bildirilib ki, Azərbaycan elminin və idmanının inkişafında xüsusi xidmətləri olan A.Abiyev həm də idmanın müxtəlif problemlərinə dair bir sıra sanballı əsərləri və tədqiqatları ilə tanınır. Yubilyar 80 illik həyatında idman, elm, təhsil, jurnalistika, televiziya və s. sahələrdə böyük uğurlara imza atıb. ADBTİA-da gənc mütəxəssislərin yetişməsində, onların idmana marağının artırılmasında A.Abiyevin böyük xidmətləri olduğu vurğulanıb. Onun Azərbaycanda beynəlxalq yarışların yüksək səviyyədə təşkili işində də əvəzsiz xidmətləri olduğu bildirilib.

Qeyd edilib ki, professor Ağacan Abiyev yüksək idman nailiyyətlərinə görə SSRİ-nin fəxri idman ustası, beynəlxalq dərəcəli hakim və Əməkdar İdman Xadimi fəxri adlarına layiq görülüb. O, Avropa Boks İttifaqının vitse-prezidenti, Hakimlər Komitəsinin sədri, Beynəlxalq Həvəskar Boks Assosiasiyasının (AİBA) İcraiyyə Komitəsinin və Hakimlər Komissiyasının üzvü kimi üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlib.

Diqqətə çatdırılıb ki, Ağacan Abiyevin 80 illik şərəfli ömür yolu gənc nəsil üçün əsl həyat məktəbidir. 1987-2015-ci illərdə ADBTİA-nın rektoru işlədiyi dövrdə Azərbaycanda həm gənc idman mütəxəssislərinin, həm də dünya miqyasında tanınmış görkəmli idmançılar nəslinin yetişməsində misilsiz xidmətlər göstərib. A.Abiyev 100-dən çox elmi məqalənin, 1 monoqrafiyanın, 15 tədris vəsaitinin və dörd ixtiranın müəllifi, elektron hakimlik sisteminin ilk yaradıcılarındandır. İdman sahəsində qazandığı uğurlarla dünyanın bir çox ölkələrində tanınan və müstəqil Azərbaycanda peşəkar idman yarışlarının təşkilatçısı olan A.Abiyev Azərbaycanda Olimpiya hərəkatının təbliğinə və inkişafına da mühüm töhfələr verib.

Tədbirdə Azərbaycan elminin və idmanının inkişafında böyük xidmətləri olan professor A.Abiyevin ictimai-siyasi fəaliyyətinin bir sıra məqamlarına toxunulub.

Vurğulanıb ki, Yeni Azərbaycan Partiyasının üzvü olan A.Abiyevin fəaliyyəti hər zaman respublika rəhbərliyinin diqqət mərkəzində olub. Şərəfli ömür yaşayan A.Abiyevin xalqımız və dövlətimiz qarşısındakı xidmətləri ölkə rəhbərliyi tərəfindən də daim yüksək qiymətləndirilib.

Yüksək diqqətə görə dövlətimizin başçısına dərin minnətdarlığını bildirən A.Abiyev Prezident İlham Əliyevin Sərəncamı ilə "Şərəf" ordeni ilə təltif edilməsini onun fəaliyyətinə verilən ən ali qiymət olduğunu deyib. O, xalqımıza və dövlətimizə bundan sonra da şərəf və ləyaqətlə xidmət edəcəyini bildirib. Ümummilli lider Heydər Əliyevin idmançılara və gənclərə, eləcə də onun ictimai-siyasi və idman fəaliyyətinə hər zaman yüksək qiymət verdiyini söyləyən Ağacan Abiyev bu ənənənin Prezident İlham Əliyev tərəfindən davam etdirildiyini deyib. Ölkədə idmanın inkişafına göstərilən dövlət qayğısından söhbət açan Ağacan Abiyev qeyd edib ki, idmançılarımız beynəlxalq yarışlarda ölkəmizi layiqincə təmsil edirlər. Bütün bu nailiyyətlərin əsasında Milli Olimpiya Komitəsinin Prezidenti, dövlətimizin başçısı İlham Əliyevin respublikamızda idmana yüksək qayğısı dayanır.

Sonda yubilyara xatirə hədiyyələri təqdim edilib.

AZƏRTAC